AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№57 (1327), 26 - 28 sentyabr 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Azərbaycanın qadın voleybolçuları Avropa çempionatında növbəti qələbə qazanıblar

### Prezident İlham Əliyev milli komandamızın oyununa baxıb

Sentyabrın 22-də Bakıda, Milli Gimnastika Arenasında qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin açılış mərasimi keçirilib. Açılış mərasimindən sonra "A" qrupunda yer alan Azərbaycan milli komandası Macarıstan yığması ilə qarşılaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli komandamızın oyununa baxıb.

Azərbaycanın və Macarıstanın dövlət himnlərinin səsləndirilməsindən sonra oyuna start verildi. Milli komandamız ilk setin əvvəlində hesabda geri olsa da, setin sonuna doğru üstünlüyü ələ alaraq 25:23 hesabı ilə qələbə qazandı. Azərbaycan voleybolçuları ikinci setdə inamla mübarizə apararaq rəqibə çətinlik çəkmədən qalib gəldilər - 25:14. Oyunun üçüncü seti də Azərbaycan voleybolçularının inamlı qələbəsi ilə yekunlaşdı - 25:16. Beləliklə, 3:0 hesabı ilə qalib gələn voleybolçu qızlarımız Avropa çempionatına qələbə ilə başladılar.

Sentyabrın 24-də qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin növbəti qarşılaşmasında "A" qrupunda yer alan Azərbaycan milli komandası ikinci görüşünü keçirib.

Milli Gimnastika Arenasında keçirilən görüşdə Azərbaycan komandası Polşa yığması ilə qarşılaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli komandamızın oyununa baxıb.

Voleybolçu qızlarımız ilk setdə polşalı rəqiblərinə böyük üstünlüklə - 25:14 hesabı ilə qalib gəldilər. Azərbaycan milli komandası ikinci setin ortalarında əldə etdiyi üstünlüyü sona qədər qoruyaraq 25:21 hesabı ilə qələbə qazandı. Gərgin idman mübarizəsi şəraitində keçən üçüncü set də milli komandamızın qələbəsi ilə başa çatdı - 25:23. Beləliklə, Azərbaycan milli komandası Polşa voleybolçularını 3:0 hesabı ilə məğlub etdi.

Azərbaycan Prezidenti İlham Əliyev komandamızın qələbəsini alqışladı.

Bu qələbədən sonra Azərbaycan komandası xallarının sayını 6-ya çatdıraraq qrupda birinci yerə yüksəlib. Polşa yığması isə 5 xalla ikinci sırada qərarlaşıb.

Xatırladaq ki, ilk oyunda komandamız Macarıstana 3:0 hesabı ilə qalib gəlib. Milli komandamız qrup mərhələsinin sonuncu oyununda Almaniya yığması ilə qarşılaşacaq.

## Avropa Liqasının finalı Bakıda keçiriləcək




Ötən həftə bütün Avropanın diqqəti İsveçrəyə yönəlib. Qurumun XIII Növbədənkənar Konqresi, ardınca isə İcraiyyə Komitəsinin yığıncağı təşkil olunub.

UEFA-ya üzv olan 55 milli assosiasiyanın, o cümlədən AFFA-nın nümayəndələrinin iştirak etdiyi Konqres Cenevrənin "Prezident Vilson" hotelində keçirilib. Lakin Azərbaycan üçün daha önəmli qərar İcraiyyə Komitəsinin Nyondakı Avropa Futbol Evində təşkil olunan toplantısında verilib.

Bir sıra vacib məsələlərin müzakirəsini aparan komitə üzvləri 2019-cu ildə Çempionlar Liqasının və Avropa Liqasının final oyunlarına hansı stadionların ev sahibliyi edəcəyini də müəyyənləşdirib. Bakı Olimpiya Stadionunun da namizəd olduğu qitənin ən mötəbər klub turnirindəki rəqabətdə Madridin "Vanda Metropolitano" stadionu qalib gəlib.

Həmin il Avropa Liqasının final matçının isə Bakı Olimpiya Stadionunda keçirilməsinə qərar verilib.

Qeyd edək ki, Bakı Olimpiya Stadionu qısa müddət ərzində istifadəyə verilməsinə baxmayaraq, I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi böyük tədbirlərin açılış və bağlanış mərasimlərinə ev sahibliyi edib.

## Azad Rəhimov:

### "Azərbaycan idmançılarının Rio Olimpiadasında 18 medal qazanmasında Avropa Oyunlarının böyük rolu olub"

***Minsk-2019 II Avropa Oyunları Koordinasiya Komissiyasının iclasında iştirak etmək və Oyunlara hazırlıq prosesi ilə tanışlıq üçün Belarusda səfərdə olan Azərbaycanın gənclər və idman naziri, Komissiyanın üzvü Azad Rəhimov bu ölkənin "TVR.BY" və "CTV.BY" kanallarına müsahibə verib.***

Nazir xüsusi vurğulayıb ki, I Avropa Oyunları zamanı Azərbaycan idmançılarının Atletlər Kəndində məskunlaşmaları, onların bu mühitlə yaxından tanış olmaları, eyni zamanda, idman yarışlarında çox güclü rəqiblərlə mübarizə aparmaları onların Rio-2016 Yay Olimpiya Oyunlarına fiziki və psixoloji cəhətdən tam hazır olmaları üçün mühüm zəmin yaratdı: "Mən Azərbaycan idmançılarının Rio-2016 Olimpiya Oyunlarından vətənə 18 medalla qayıtmasını birbaşa onların bir çoxunun Atletlər Kəndində yaşamaları, bu mühitlə yaxından tanış olmaları, I Avropa Oyunlarında gərgin keçən mübarizə şəraitində qüvvələrini sınamaları ilə bağlayıram".

Azad Rəhimov II Avropa Oyunlarına hazırlıq məqsədilə müxtəlif mövzuların müzakirəsinin aparıldığı Koordinasiya Komissiyasının iclasında ölkəmizin mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi etməsindən və bu sahədə kifayət qədər bilik və təcrübəyə malik peşəkar gənc nəslin yetişməsindən danışaraq, Minsk-2019-un təşkilində Azərbaycanın kadr potensialından da yararlanmağın mümkünlüyü təklifini irəli sürüb.

Qeyd edək ki, 2019-cu ildə Minskdə baş tutacaq II Avropa Oyunlarında 50 ölkədən dörd min atlet idmanın 15 növü üzrə 12 arenada mübarizə aparacaq.

## Bakıda ilk dəfə "Mübarizlər" yarışı keçirilib

***Sentyabrın 23-də Milli Olimpiya Komitəsinin (MOK), Fövqəladə Hallar, Gənclər və İdman nazirliklərinin dəstəyi və "Events Management Azerbaijan" şirkətinin təşkilatçılığı ilə beynəlxalq səviyyəli ekstremal idman turniri "Qəhrəmanlar Liqası" - "Mübarizlər" yarışı keçirilib.***

Fövqəladə Hallar Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən yarışın açılış mərasimində dövlət və hökumət rəsmiləri, müxtəlif idman qurumlarının nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Rusiyada bir neçə dəfə keçirilən bu yarışın artıq Azərbaycanda da təşkil olunduğunu bildirib.

Sonra "Mübarizlər" layihəsinin rəhbəri Elvin İsmayılov və layihənin müəllifi Kseniya Şoyqu yarışların yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını vurğulayıb.

Qeyd edək ki, Azərbaycanda ilk dəfə keçirilən maneəli ekstremal "Mübarizlər" yarışında 15 nəfər iştirak



edib. Kişilər arasında 10, qadınların mübarizəsində isə 5 nəfər qalib elan olunub. Qalib və mükafatçılara diplom, medal, kubok və pul mükafatları təqdim olunub.

AZERBAIJAN

**Milli Olimpiya Komitəsi** 1992 25 2017

**25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT**

Səh. 2

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

**Həmkarlar İttifaqının idman cəmiyyətində gənc nəslin fiziki inkişafına xüsusi diqqət ayrılır**

Səh. 3

## Azərbaycan Qılıncoynatma Federasiyasına yeni prezident seçilib

***Sentyabrın 20-də Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Azərbaycan Qılıncoynatma Federasiyasının (AQF) növbədənkənar hesabat-seçki konfransı keçirilib.***

Tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev və müxtəlif idman qurumlarının rəhbərləri iştirak ediblər.

Hesabat-seçki konfransında federasiyanın rəhbər heyətinə seçkilər keçirilib. AQF-in prezidenti vəzifəsinə yeganə namizəd olan təhsil naziri Mikayıl Cabbarov səsvermə nəticəsində bu vəzifəyə seçilib.

Qeyd edək ki, Mikayıl Cabbarov həm də Azərbaycan Badminton Federasiyasının prezidentidir. O, yeni vəzifədə avqustun 17-də növbəti dəfə AQF-in prezidenti seçilən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovu əvəzləyib. Nazim İbrahimov 2007-ci ildən AQF-in prezidenti olub.

**ÇL qrup mərhələsi** **C qrupu**

**"Qarabağ" - "Roma"**

**(Azərbaycan)** **(İtaliya)**

*27 sentyabr. Bakı. Olimpiya Stadionu. Saat 20:00.*

## Hərbçilərin dünya çempionatından 10 medal

Sentyabrın 18-25-də Litvanın Klaypeda şəhərində keçirilən hərbçilərin güləş üzrə 32-ci dünya çempionatına yekun vurulub. Dünya çempionatında 22 ölkədən 320-yə yaxın idmançı qüvvəsini sınayıb. Azərbaycan güləşçiləri bu yarışda 10 (1 qızıl, 3 gümüş və 6 bürünc) medal qazanıblar.

Sərbəst güləşçilərimiz ümumilikdə 5 (1 qızıl və 4 bürünc) medala sahib olublar. Beləliklə, sərbəst güləşçilərimiz komanda hesabında Rusiya və İran yığmalarından sonra üçüncü yeri tutublar.

Yarışlarda qadın güləşi yığmamız isə çempionatda 1 gümüş medal qazanıb.

Yunan-Roma təmsilçilərimiz isə yarışlarda 4 (2 gümüş və 2 bürünc) medal qazanıblar.

AZERBAIJAN

# Milli Olimpiya Komitəsi

1992 25 2017

*(əvvəli ötən saylarımızda)*

***Azərbaycan Milli Olimpiya Komitəsinin bu il 25 yaşı tamam olur. Yarandığı gündən etibarən beynəlxalq Olimpiya Hərəkatında özünəməxsus iz qoymağı bacaran Milli Olimpiya Komitəsi çətin və şərəfli bir yol keçib. Ötən müddət ərzində ölkənin idman və Olimpiya Hərəkatı özünün yüksək inkişaf yoluna qədəm qoyub, idman salnaməsinə qızıl hərflərlə yazılan nailiyyətlər əldə edilib. İdman və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır və yüksək səviyyəli beynəlxalq yarışlara uğurla ev sahibliyi edir.***

***Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzeti fəaliyyətə başladığı gündən Azərbaycanda idman və Olimpiya Hərəkatının təbliğinə geniş yer ayırır. Qəzet öz səhifələrində idmançılarımızın ölkə və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nailiyyətlər, qazanılan uğurlar barədə oxucuları müfəssəl məlumatlandırır. "Olimpiya dünyası" Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illiyi münasibətilə növbəti yazını diqqətinizə çatdırır.***



# 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

***Azərbaycanda bütün qurumlar - Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri və klubları vahid komanda şəklində fəaliyyət göstərir. Bizim məqsədimiz ondan ibarətdir ki, ölkə idmanını inkişaf etdirək və Azərbaycanın uğurlarını təmin edək. Bir sözlə, bütün bu amillər Azərbaycanı dünya idmanı xəritəsində xüsusi yerə qoyur. Bizim yerimiz möhkəmdir. Əminəm ki, biz bundan sonra da Olimpiya Hərəkatında fəal iştirak edəcəyik".***

***İlham Əliyev***

## Qədim idman ənənələrinə malik olan Azərbaycan günü-gündən inkişaf edir

Ölkəmizin mötəbər yarışlara ev sahibliyi etməsi onun dünyada daha da tanınmasında və beynəlxalq nüfuzunun artmasında son dərəcə əhəmiyyətli rol oynayır. Belə tədbirlər həm də ölkəmiz, dövlətimiz üçün iqdisadi və siyasi baxımdan böyük uğurlar gətirir. Burada məqsəd Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri sırasına daxil olmasıdır və bunun üçün respublikamızın kifayət qədər potensialı vardır. Azərbaycanın ən böyük uğurlarından biri də ölkədə ictimai-siyasi sabitliyin, dinamik inkişaf tempinin qorunub saxlanmasıdır. Təbii ki, güclü idman infrastrukturu, yüksək təşkilatçılıq bacarığı, təhlükəsizlik məsələləri, iqtisadi və kommunikasiya imkanları ev sahibliyində hər zaman həlledici rola malikdir.

Ölkəmiz 2012-ci ildə "Eurovision" musiqi yarışmasına, 2015-ci ildə Birinci Avropa Oyunlarına, 2016-cı ildə isə Formula-1 yarışlarına ev sahibliyi etdi. Adıçəkilən hər üç yarış özündə Avropa məfhumunu birləşdirir. Azərbaycan müsəlman ölkəsidir, İslam Əməkdaşlıq Təşkilatının, eyni zamanda Avropa ölkəsi kimi Avropa Şurasının üzvüdür. Azərbaycan bu iki sivilizasiya arasında körpü rolunu oynayır. Mötəbər tədbirlərin ölkəmizdə təşkili Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, beynəlxalq media qurumlarına çıxmaqda çox önəmli amildir.

Ölkəmiz artıq ikinci ildir ki, dünyanın mötəbər idman yarışlarından biri olan Formula-1 yarışlarına ev sahibliyi edir. 2016-cı ildə keçirilən "Formula-1" yarışlarını dünyanın 190 ölkəsində 500 milyondan artıq azarkeş izlədi. İlk yarış 2016-ci ildə Avropa Qran-prisi adı ilə keçirildi. "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin təşkilatçılığı ilə keçirilən Avropa Qran-prisinə hazırlıq prosesi 783 gün davam etdi. Yarışın yüksək səviyyədə təşkili üçün 10 min işçi, 5 min könüllü gərgin fəaliyyət göstərdi. Bütün dünya Azərbaycanı gördü, Bakı ilə tanış oldu. Formula-1 üzrə Azərbaycan Qran-prisi adı altında keçirilən ikinci yarış bu il iyunun 23-25-də baş tutdu. Bakının mərkəzi küçələrində təşkil olunan yarışları 71 min 541 azarkeş izlədi. Yarışda dünyanın məşhur pilotları Sebastyan Fettel, Lyuis Hamilton, Fernando Alonso kimi idmançılar mübarizə apardılar.

Azərbaycanda beynəlxalq səviyyəli yarışların təşkilinin ənənəvi xarakter alması ölkəmizin güclü və qüdrətli idman dövlətinə çevrildiyini bir daha təsdiq edir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 42-ci Ümümdünya Şahmat Olimpiadasında iştirak edəcək milli komandanın üzvləri ilə görüşündə bir daha xatırlatdı: "Beynəlxalq idman yarışlarının keçirilməsi Azərbaycanın gücünü, Azərbaycana olan hörməti göstərir. Ötən il birinci Avropa Oyunları çox böyük uğurla keçirilmişdir. Deyə bilərəm ki, yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Bu il Formula-1 yarışı keçirilmişdir ki, bunun da auditoriyası 500 milyon insandır. Gələn il isə İslam Həmrəyliyi Oyunları keçiriləcək və bu gün Şahmat Olimpiadası başlayır. Mənə verilən məlumata görə, 175 ölkənin nümayəndələri Olimpiadada iştirak edəcəklər və bu, rekord göstəricidir".

42-ci Şahmat Olimpiadası indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarış kimi yadda qaldı. Bu mötəbər yarışda 175 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə apardı. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstərici idi. Azərbaycan bu Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olundu. Yarışların nəticələrinə görə, hesabında 15 xal olan əsas komandamız yarışı 12-ci sırada tamamladı. İkinci yığmamız 14 xalla 26-cı, üçüncü komandamız isə 13 xalla 49-cu pillədə yer aldı. Kişi şahmatçıların mübarizəsində çempion adını aktivində 20 xal olan ABŞ millisi qazandı. Qadınların yarışında isə qalib adına 20 xalla Çin şahmatçıları layiq görüldülər.

Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov yarışdan sonra 42-ci Ümumdünya Şahmat Olimpiadasının Bakıda yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan Şahmat Federasiyasına təşəkkürünü bildirdi: "Bakıda keçirilən Şahmat Olimpiadasını həm yüksək səviyyədə təşkilinə, həm də iştirakçıların tərkibinə görə tarixdə ən yaxşı olimpiada adlandırmaq olar. Yarışlarda dünyanın əsas beynəlxalq qrossmeysterləri iştirak edirdilər. Onların arasında hazırkı dünya çempionları da var idi. Partiyalar, gedişlər də olduqca maraqlı idi. Olimpiada möhtəşəm "Baku Crystal Hall"da keçirilirdi. Həmin zalda iştirakçılar üçün sərgilər, ekskursiyalar təşkil olunmuşdu. Azərbaycan Prezidenti bizə oyunlardan sonra asudə vaxtlarda ölkənin mədəniyyəti, adət-ənənələri ilə tanış olmağı tövsiyə etmişdi. İki həftə ərzində Olimpiadanın iki minədək iştirakçısı əmin oldu ki, Azərbaycan dünyanın şahmat paytaxtlarından biri olmaqla yanaşı, qədim adət-ənənələrinə və mədəniyyətinə sadiq olan inkişaf etmiş ölkədir".

## Böyük tarixi qələbə

Ölkəmiz 2017-ci ildə daha bir mötəbər tədbirə- IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək hüququnu İslam Həmrəyliyi İdman Federasiyasının 2014-cü il iyulun 24-də keçirilən 8-ci Baş Assambleyasında əldə etdi.

May ayının 12-dən 22-dək keçirilən IV İslam Həmrəyliyi Oyunlarında iştirak etmək üçün Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə təşrif buyurdu. İndiyədək İslam Həmrəyliyi Oyunlarında bu qədər ölkənin və idmançının iştirak etməsi müşahidə olunmayıb. Yarışları 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izlədi. Oyunların işıqlandırılmasında 1000-dən artıq xarici və yerli media nümayəndəsi iştirak etdi. İdmanın 20 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə apardılar. Zorxana Oyunların proqramına milli idman növü kimi daxil edildi. İdmançılar atletika, su idman növləri (üzgüçülük, suyatullanma və su polosu), basketbol 3x3, futbol, gimnastika (bədii və idman gimnastikası), taekvondo, stolüstü tennis, tennis, həndbol, cüdo, güləş (sərbəst və yunan-Roma), atıcılıq, voleybol, boks, ağırlıqqaldırma, karate, uşu və zorxana üzrə yarışlarda qüvvələrini sınadılar.

Azərbaycan atletləri IV İslam Oyunlarında ümumilikdə 162 medal (75 qızıl, 50 gümüş, 37 bürünc) qazanaraq komanda hesabında birinci oldular. Türkiyə 195 medalla ikinci (71 qızıl, 67 gümüş, 57 bürünc), İran 98 medalla (39 qızıl, 26 gümüş, 33 bürünc) üçüncü, Özbəkistan 64 medalla dördüncü (15 qızıl, 17 gümüş, 31 bürünc), Bəhreyn isə 21 medalla beşinci (12 qızıl, 5 gümüş, 4 bürünc) yerdə qərarlaşdı. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazandılar.

Komandamızın aktivinə ən çox medalları cüdoçularımız yazdırdılar. Onlar, ümumilikdə, İslamiadada 26 medal - 11 qızıl, 12 gümüş və 3 bürünc əldə etdilər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da böyük payı var.

Atletika yarışlarında qadın idmançılarımız 1 qızıl, 1 bürünc medala yiyələndilər. Kişi idmançılarımız isə yarışları 6 qızıl, 3 gümüş və 3 bürünc medalla başa vurdular. Azərbaycan boksçuları IV İslam Həmrəyliyi Oyunlarında 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazandılar. Suyatullanma yarışlarında Azərbaycanın qadın idmançısı 2 qızıl medala layiq görüldü. Kişi üzgüçülərin yarışında isə 4 (2 gümüş və 2 bürünc) medal əldə edildi. Taekvondo üzrə Azərbaycan yığma komandasının qazandığı medalların sayı 9-a çatdı. Bu medallardan 3-ü (2 qızıl,1 gümüş) qadınların, 6-sı (4 qızıl, 1 gümüş, 1 bürünc) isə kişi idmançıların payına düşürdü. Ağırlıqqaldırma yarışlarında idmançılarımız ümumilikdə 4 medal (1 qızıl, 3 bürünc) qazandılar. Karate üzrə milli komandamız IV İslam Həmrəyliyi Oyunlarını 10 medalla (5 qızıl, 2 gümüş, 3 bürünc) başa çatdırdı. Əldə olunan medallardan 2 qızıl, 2 gümüş və 1 bürünc medal qadın karateçilərimizin payına düşür. Yarışlar Azərbaycan atıcıları üçün də uğurlu oldu. Atıcılarımız yarışlarda 6 qızıl, 3 gümüş və 1 bürünc medal qazandılar. Üzgüçülər Oyunlarda 4 qızıl, 1 bürünc medal, stolüstü tennisçilər isə ümumilikdə 4 medala sahib çıxdılar. Ölkəmizin zorxana ustaları IV İslam Həmrəyliyi Oyunlarında 7 (1 qızıl, 3 gümüş və 3 bürünc) medalla kifayətləndilər. Uşu növünün təmsilçiləri isə bu yarışı 6 (3 gümüş, 3 bürünc) medalla yekunlaşdırdılar.

Bakı-2017-də paralimpiyaçılar atletika və cüdo yarışlarında mübarizə apardılar. Paracüdoçular yarışlarda 11 (4 qızıl, 4 gümüş və 3 bürünc) medala sahib oldular. Paraatletika yarışlarında mübarizə aparan qadın idmançılarımız yarışları 2 qızıl medalla baş vurdular.

Komanda idman növləri üzrə yarışlar da idmançılarımız üçün uğurlu oldu. Belə ki, futbol, həndbol və voleybol üzrə qadınlardan ibarət yığmamız IV İslam Həmrəyliyi Oyunlarının çempionu adını qazandı. Kişilərdən ibarət voleybol millimiz isə ikinci yerə layiq görüldü.

İslam Həmrəyliyi Oyunları İslam Əməkdaşlığı Təşkilatına (İƏT) daxil olan ölkələri bir araya gətirən mötəbər idman tədbiridir. Oyunların təşkilinə və keçirilməsinə İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) nəzarət edir. Oyunlar həm Olimpiya, həm də qeyri-olimpiya idman növləri üzrə keçirilir.

İlk İslam Həmrəyliyi Oyunları Səudiyyə Ərəbistanında keçirilib. 2005-ci il aprelin 8-20-də Məkkə, Mədinə və Ciddə şəhərlərində təşkil olunmuş yarışlarda Azərbaycan yığması 12 idman növü üzrə 103 idmançı ilə təmsil olunub. Komandamız yarışı 15 medalla (4 qızıl, 4 gümüş və 7 bürünc) başa vuraraq medal qazanan ölkələr arasında 8-ci pillədə qərarlaşıb. II İslam Həmrəyliyi Oyunları 2009-cu ildə İranda keçirilməli idi. Amma İranla ərəb ölkələri arasında yaranmış mübahisə üzündən Oyunlar baş tutmayıb. III İslam Həmrəyliyi Oyunları 2013-cü ilin 22 sentyabr - 2 oktyabrında İndoneziyanın Palembanq şəhərində təşkil olunub. Bu oyunlarda Azərbaycanı 9 idman növü üzrə 53 idmançı təmsil edib. Yığmamız 24 medalla (7 qızıl, 8 gümüş, 9 bürünc) iştirakçı ölkələr arasında 7-ci yeri tutub.

Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarından sonra qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi. Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iştirak edirdilər. IV İslam Həmrəyliyi Oyunlarının ölkəmiz üçün böyük tarixi qələbə adlandıran ölkə rəhbəri çıxışında dedi: "Bizim idmançılar bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu Oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır. Əlbəttə, biz hamımız yaxşı bilirik ki, bu qələbə təsadüfi qələbə deyil. Çünki idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında artıq öz güclərini göstərmişlər və Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır".

Qazanılan uğurlar, əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, ölkəmizdə fəaliyyət göstərən bütün idman qurumları bütün var-qüvvəsini ümumi məqsədə çatmaq üçün sərf edir. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klub və cəmiyyətlərin qarşıya qoyduğu məqsəd Azərbaycanda idman və Olimpiya Hərəkatının daha da inkişaf etdirilməsi, insanların sağlamlığının qorunması, eləcə də idman və bədən tərbiyəsinin kütləviliyinin təmin olunmasıdır.

Ötən 25 ilə nəzər salanda görürük ki, idman və Olimpiya Hərəkatının yüksək sürətlə inkişaf etdiyi Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdmançılarımız Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında böyük nailiyyətlər qazanırlar. Milli Olimpiya Komitəsinin gərgin və səmərəli fəaliyyəti sayəsində ölkəmiz mötəbər beynəlxalq tədbirlərin və yarışların mərkəzinə çevrilibdir. İdman və Olimpiya Hərəkatının yüksək sürətlə inkişafı, idmanın güclü maddi-texniki bazaya malik olması, əldə olunan uğurların sayəsində nüfuzlu beynəlxalq qurumlar respublikamıza böyük etimadı göstərir, mötəbər yarışların təşkilini Azərbaycana həvalə edirlər. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmizdə idman və Olimpiya Hərəkatının inkişafı üçün dövlətimiz tərəfindən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Ölkədə idman və bədən tərbiyəsinin kütləviliyinin artırılması, insanların sağlamlığı, gənc nəslin fiziki və mənəvi inkişafı istiqamətində mühüm tədbirlər görülür, müxtəlif proqramlar həyata keçirilir.



Respublikamızda idman sahəsində əldə olunmuş nailiyyətlər, idmançılarımızın ən mötəbər beynəlxalq idman yarışlarında qazandığı uğurlar Gənclər və İdman Nazirlyi, Milli Olimpiya Komitəsi və ölkəmizdə idman növləri üzrə fəaliyyət göstərən federasiyalar, idman klubları və idman cəmiyyətləri sıx əməkdaşlığı sayəsində mümkün olmuşdur. Azərbaycanın ictimai həyatında mühüm amillərdən biri olan bədən tərbiyəsi və idmanın gündən-günə tərəqqisi naminə bu sahədə görülən işlər böyük bir fəaliyyət proqramının tərkib hissəsi kimi bundan sonra da uğurla həyata keçiriləcəkdir.

Azərbaycan Milli Olimpiya Komitəsi son 25 ildə böyük inkişaf yolu keçib. Komitə səmərəli və məqsədyönlü fəaliyyətində Olimpiya Hərəkatı və Olimpiya ideallarının təbliğini, idmanın inkişafını prioritet məsələ kimi daim önə çəkib. Milli Olimpiya Komitəsinin yaradılması, Olimpiya Oyunlarında Azərbaycan bayrağı altında vahid komanda şəklində iştirak etməsi xalqımızın azadlığının və ölkəmizin suverenliyinin bəhrəsidir. Azərbaycanın digər sahələrdə olduğu kimi, idmanda və Olimpiya Hərəkatında da uğurları günü-gündən artır və bu uğurların davamı olacaqdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Həmkarlar İttifaqının idman cəmiyyətində gənc nəslin fiziki inkişafına xüsusi diqqət ayrılır

***İdmanın, Olimpiya Hərəkatının ölkəmizdə geniş vüsət alması, mövcud idman bazalarının bərpa olunaraq müasir standartlara uyğun səviyyədə yenidən qurulması, paytaxtda və bölgələrdə yeni tipli Olimpiya idman komplekslərinin inşası sürətlə davam edir. Bütün bunlar isə idmançılarımızın Olimpiya Oyunlarında, Avropa və dünya çempionatlarında yüksək nəticələr qazanmasına imkan yaradır. Ölkəmizin beynəlxalq səviyyəli idman tədbirlərinin və yarışların mərkəzinə çevrilməsi dünya idman təşkilatlarının diqqətini Azərbaycana cəlb edib. Təsadüfi deyil ki, Azərbaycan müxtəlif idman növləri üzrə Avropa, dünya çempionatlarına, beynəlxalq turnirlərə ev sahibliyi edən ölkələr sırasında ilk pillələrdə yer alır.***



Ölkəmizdə gənclərin idmana cəlb olunması işi xüsusi diqqət mərkəzində saxlanılır. Şübhəsiz ki, qazanılan uğurlar məntiqi, ardıcıl dövlət siyasətinin və proqramının nəticəsidir. Gələcəyin qurucusu olan gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi Azərbaycanda dövlət səviyyəli əhəmiyyətli məsələlərdəndir. Uşaq və gənclərin idmana cəlb olunması sağlam həyat tərzinə stimul yaradır. Sağlam gənc nəslin yetişməsi və formalaşdırılması dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə yeniyetmə və gənclərin idmana cəlb edilməsinin vacibliyini, idmanla məşğul olan gənclərin mənəvi cəhətdən güclü olduqlarını vurğulayıb. Uşaq və gənclərin sağlam böyüməsi, onların fiziki və mənəvi inkişafı, milli ruhda tərbiyələndirilməsi, geniş dünyagörüşlü, çevik və bacarıqlı nəslin yetişdirilməsi həmişə ölkə rəhbərliyinin diqqət mərkəzində olub.

Azərbaycanda son illər inşa edilən idman qurğuları, Olimpiya idman kompleksləri, stadionlar, zallar uşaq və yeniyetmələrimizin sağlamlığına, fiziki cəhətdən daha da inkişaf etməsinə xidmət edir. Uşaq və gənclərimizin hər biri vətənimizin keşiyində dayanaraq, sabahın mərd, qorxmaz əsgəri olacaqlar. İndi Azərbaycan gənclərinin dünyanın ən qabaqcıl gəncləri sırasında olduğunu desək, yanılmarıq. Gənc nəslin nümayəndələri müxtəlif sahələrdə, o cümlədən idmanda özlərinin bacarıqlı, güclü olduqlarını bütün dünyaya sübut edirlər. Sevindirici haldır ki, ölkəmizdə idmanla məşğul olan uşaq və gənclərin sayı günbəgün artır, idman kütləviləşir. Xüsusi qeyd olunmalıdır ki, bədən tərbiyəsinin ümdə sahələrindən biri də kütləvilikdir. İdmanın inkişafına yönəldilən kütləvilik ümumtəhsil məktəblərindən, məktəbdənkənar müəssisələr olan uşaq bağçalarından başlayır. Ölkəmizdə xeyli sayda uşaq-gənclər idman məktəbləri, müxtəlif cəmiyyətlər yaradılıb ki, bunların da üzərinə kütləviliyi inkişaf etdirmək kimi böyük vəzifə düşür.




Ən müasir idman qurğularında təcrübə qazanan idmançılarımız Avropa, dünya miqyaslı turnirlərdə öz sözlərini layiqincə deyirlər. İdmanın şöhrət zirvəsində yer alan gənclərimizin vətənpərvərlik, dünyəvilik prinsipləri əsasında tərbiyə olunması, onların fiziki və mənəvi inkişafı da Azərbaycan dövlətinin əsas ideologiyalarından biridir. Uşaq və gənclərə göstərilən əvəzsiz qayğı ölkəmizin, millətimizin gələcəyi olan nəslin güclü xarakterə, sağlam ruha malik olmasında başlıca rol oynayır. Bu gün Azərbaycanda fiziki və mənəvi cəhətdən sağlam, bütün varlığı ilə xalqına, vətəninə bağlı olan bir nəsil yetişib. Sözsüz ki, bütün bunlar Azərbaycan dövlətinin gənc nəslə qayğısından qaynaqlanır. Qayğı ilə əhatə olunan hər bir uşaq isə mənəvi cəhətdən saf olur, pis əməllərdən çəkinir, göstərilən qayğıdan müsbət yararlanmağı özünün mənəvi borcu hesab edir.

Uşaq və yeniyetmələrin böyük idmana gedən yolu təbii ki, bu sahənin inkişafında özünəməxsus dəsti-xətti olan cəmiyyətlərdən və klublardan keçir. Uzun illərdir ki, ölkənin idman və bədən tərbiyəsinin inkişafında uğurla fəaliyyət göstərən "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyi (BTİCİB) məhz bu sahədə kifayət qədər təcrübəsi olan qurumlardandır. Cəmiyyətin idmançıları indiyədək Avropa və dünya birinciliklərində, Olimpiya Oyunlarında ölkəmizi şərəflə təmsil edir, yüksək nailiyyətlər qazanırlar.

"Zenit" İB Azərbaycan Həmkarlar İttifaqı İdman Təşkilatları İctimai Birliyinin (AHİİTİB) tabeliyindədir və həmin qurumun dəstək və qayğısını hər zaman hiss edir. Yeri gəlmişkən, qeyd edək ki, AHİİTİB ölkədə idman və Olimpiya Hərəkatının inkişafı və təbliği məqsədilə tabeliyində olan bütün idman qurumlarına hərtərəfli kömək edir və hər cür şərait yaradır. İdman cəmiyyəti xüsusilə təkbətək döyüşlər növləri üzrə idmançıların hazırlanması sahəsində zəngin təcrübəyə malikdir. Burada idmanın sərbəst güləş, yunan-Roma güləşi, boks, cüdo, taekvondo və sambo bölmələri fəaliyyət göstərir. İdman ocağının fəaliyyəti təkcə paytaxtı əhatə etmir, Sumqayıt və Gəncə şəhərlərində də yerli şuralar fəaliyyət göstərir. Təcrübəli məşqçilər yetirmələrinin peşəkar idmançı kimi püxtələşməsində, ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil etmələrində böyük əmək sərf edirlər. Təsadüfi deyil ki, yüksək səviyyəli turnirlərdə, mötəbər yarışlarda Azərbaycanı layiqincə təmsil edən idmançılar arasında cəmiyyətin yetirmələrinin sayı yetərincədir. Cəbrayıl Həsənov, Əfqan Xaşalov, Elmira Qəmbərova və başqaları məhz "Zenit" İC-ni təmsil edirlər.

"Zenit" İC-in 3 idmançısı buyaxınlarda beynəlxaq turnirlərdən medallarla qayıdıb. Bununla əlaqədar olaraq, həmin idmançılar və onların məşqçiləri ilə idman cəmiyyətinin bazasında görüşdük.

## "Dünya birinciliyində Azərbaycan bayrağını dalğalandırdığım üçün çox sevinirəm"

Bu ilin sentyabr ayında Yunanıstanın paytaxtı Afina şəhərində yeniyetmə güləşçilər arasında dünya birinciliyi keçirilib. Yarışda "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin də yetirməsi iştirak edib və yüksək nəticə qazanıb. 42 kq çəki dərəcəsində mübarizə aparan idman ocağının təmsilçisi Əlihəsən Əmirli Afinada bütün rəqiblərinə qalib gələrək yeniyetmələr arasında dünya birinciliyinin qalibi adına layiq görülüb. Sərbəst güləşçi dünya çempionatında keçirdiyi görüşlər barəsində "Olimpiya dünyası" qəzetinə danışdı: "Yunanıstanda keçirilən dünya çempionu mənim üçün yaddaqalan oldu. Yarışa yüksək səviyyədə hazırlaşmışdım. Fiziki hazırlıq baxımdan heç bir problem yox idi. Turnirə 1/8 final mərhələsindən başladım. Əvvəlcə amerikalı idmançı üzərində 11:0 hesabı ilə qələbə qazandım. Növbəti mərhələdə isə Qazaxıstan təmsilçisini eyni hesabla məğlub etdim. Yarımfinalda yaponiyalı güləşçini də 11:0 hesabı ilə məğlub edərək finala vəsiqə qazandım. Həlledici mərhələdə özbəkistanlı güləşçi ilə qarşılaşdım. Bu görüş mənim üçün çox çətin keçdi. Bilirdim ki, bu mərhələdə səhv etsəm, dünya çempionu titulundan məhrum ola bilərəm. Buna görə də çox ehtiyatlı güləşdim. Birinci hissədə rəqibimdən bir xal aldım və bu üstünlüyümü görüşün sonuna qədər saxlamağı bacardım. Bu çempionatın mənim üçün yaddaqalan məqamlarından biri keçirdiyim bütün görüşlərdə rəqiblərimdən heç birinə xal verməməklə 33 xal toplamağım oldu. Bu, mənim üçün çox yüksək bir nəticədir. Dünya birinciliyində Azərbaycan bayrağını dalğalandırdığım üçün çox sevinirəm. Çalışacağam ki, gələcəkdə keçirilən növbəti yarışlarda da uğurla mübarizə apararaq mənə bəslənən ümidləri doğruldum".

## İkiqat dünya çempionu olmağa nə mane oldu?

"Zenit" Bədən Tərbiyəsi və İdman Cəmiyyəti İctimai Birliyinin digər təcrübəli güləşçisi Əfqan Xaşalov (55 kq) isə Almaniyanın Dortmund şəhərində keçirilən Avropa çempionatında qızıl medala layiq görülüb. Perspektivli sərbəst güləşçi ötən ay Finlandiyanın Tampere şəhərində gənclər arasında keçirilən dünya çempionatında da uğurla yarışıb. 55 kq çəki dərəcəsində mübarizə aparan Əfqan Xaşalov dünya çempionatından vətənə bürünc medalla qayıdıb. Yarışlarla bağlı fikirlərini bildirən sərbəst güləşçi əsas məqsədinin böyüklər arasında da dünya, Avropa çempionu, həmçinin Olimpiya Oyunlarının medalna sahib çıxmaq olduğunu bildirdi: "Almaniyada keçirilən Avropa çempionatına yüksək səviyyədə hazırlaşmışdım. Keçirdiyim heç bir görüşdə çətinlik çəkmədən rəqiblərimə qalib gəldim. Yarışa 1/8 final mərhələsindən başlamışdım. Əvvəlcə İsveçrə idmançısına 12:0 hesabı ilə qalib gəldim. 1/4 finalda erməni güləşçisini də 12:0 hesabı ilə məğlub etdim. Növbəti mərhələdə isə Moldovadan olan rəqibimi asanlıqla məğlub etdim və finala vəsiqə qazandım. Keçirdiyim görüşlərin heç birində rəqiblərimə xal vermədim. Həlledici görüşdə rəqibim Bolqarıstan idmançısı oldu. Tam üstünlüklə rəqibimi məğlub edərək Avropa çempionatının qızıl medalına layiq görüldüm. Avropa çempionu tituluna sahib çıxmaq qürurverici hissdir. Yeniyetmələr arasında bu titula yiyələnmişdim. Gənclər arasında da Avropa çempionu adını qazandım".

Dünya çempionatındakı nəticələri ilə bağlı danışan Əfqan Xaşalov çempion ola bilməməsini həm çəki problemi, həm də zədələnməsi ilə əlaqələndirdi. "Avropa çempionatından sonra dünya çempionatına yollandıq. Dünya və Avropa çempionatı arasında vaxtı nəzərə alsaq, istirahətə çox az vaxtımız var idi. Buna baxmayaraq, yarışa yüksək səviyyədə hazırlaşmışdım. Qızıl medal qazana bilməməyimdə bir sıra səbəblər var idi. Bunlardan ən başlıcası həm çəki problemi, həm də xəstələnməyimlə bağlı oldu. Hətta ilk görüşümdə topuğumdan zədə aldım. Məşqçilərimin və həkimlərin səyi nəticəsində növbəti görüşə çıxdım. Zədələnməyimə baxmayaraq, birinci görüşdə bolqarıstanlı idmançıya qalib gəldim. Növbəti görüşdə isə ABŞ təmsilçisinə uduzdum. Bürünc medal uğrunda təsəlliverici görüşlərdə Əlcəzair və Özbəkistan idmançılarını məğlub etdim. Üçüncü yer uğrunda görüşdə isə İran güləşçisinə qalib gələrək bürünc medala sahib çıxdım. Təbii ki, çox istəyirdim ki, ikiqat dünya çempionu adını qazanım. Lakin bu mötəbər yarışda və belə bir vəziyyətdə bürünc medal qazanmağım da mənim üçün böyük nəticədir. Medal qazanmaq, fəxri kürsüdə yer almaq və himni səsləndirmək hər bir idmançı üçün əvəzsiz hisslərdir. Mənə bəslənən ümidləri doğrultduğum və məşqçilərimin əziyyətini yerdə qoymadığım üçün çox sevinirəm. Qələbəmdə əziyyəti olan bütün məşqçilərimə, Azərbaycan Güləş Federasiyasının və "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm", - deyə o əlavə etdi.

## İlk yarışda qızıl medal məşqçini sevindirdi

Əlihəsən Əmirli və Əfqan Xaşalovun məşqçisi Cavid Qurbanzadə bizimlə söhbətində son yarışlar barəsində fikirlərini bölüşdü. 2000-ci ildən sərbəst güləş sahəsində çalışan təcrübəli mütəxəssis yetirmələrinin çıxışından razı qaldığını və onların gələcəkdə Olimpiya çempionu adını qazanacağına inandığını bildirdi. Əvvəlcə Əlihəsən Əmirli barəsində danışan Cavid müəllim tələbəsinin ilk yarışda yüksək nəticə qazandığını vurğuladı: "Əlihəsənlə bir il idi ki, turnirə hazırlaşırdıq. Yaşının az olmasına baxmayaraq, çox perspektivli və texnikalı güləşçidir. Bu il ondan yüksək nəticələr gözləyirdim. Afinada keçirilən dünya çempionatı Əlihəsən üçün ilk beynəlxalq yarış idi. İlk dəfə beynəlxalq arenada çıxış etməsinə baxmayaraq, bütün görüşləri yüksək səviyyədə keçirdi. Qarşıda bizi respublika və Avropa çempionatı, həmçinin beynəlxalq yarışlar gözləyir. Biz gələn il Argentinada keçiriləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarına hazırlaşırıq. Qeyd edim ki, Avropa çempionatının final mərhələsində iştirak edən idmançı yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya qazanacaq. İnanıram ki, Əlihəsən bu işin öhdəsindən də layiqincə gələcək".

Təcrübəli mütəxəssis Əfqanın dünya çempionu ola bilməməsinin səbəbini xəstələnməsi ilə izah etdi. "Əfqan Avopa çempionatında yaxşı çıxış etdi. Bütün rəqiblərinə vaxtından əvvəl qalib gəldi. Dünya çempionatında isə qızıl medal qazanmaq mümkün olmadı. Xəstələndiyinə görə, tam gücü ilə mübarizə apara bilmədi. Hətta biz ehtimal edirdik ki, o, səhhətinə görə yarışa çıxa bilməsin. Buna baxmayaraq, Əfqan özündə güc tapdı və vətənə bürünc medalla qayıtmağı bacardı. Məşqçi kimi həmişə çalışmışam ki, yetirmələrimə düzgün istiqamət verim, onları zədələrdən və pis vərdişlərdən qoruyum", - deyə Cavid Qurbanzadə əlavə etdi.

## "Biz ondan qızıl medal gözləyirdik..."

Finlandiyada keçirilən dünya çempionatında "Zenit" İC-in digər güləşçisi Namaz Rüstəmov da mükafatçılar sırasında yer alıb. 66 kq çəkidə mübarizə aparan yunan-Roma güləşçisi bürünc medala yiyələnib. Namaz Rüstəmovun şəxsi məşqçisi Zöhrab Abbasov yetirməsinin bu ildən böyüklərin yarışında mübarizə aparacağını və onun yığma komandanın heyətinə əsas namizədlərdən biri olduğunu qeyd etdi: "Namaz Rüstəmov gələcək üçün perspektiv vəd edən idmançılardan biridir. O, Finlandiyada keçirilən dünya çempionatında uğurla yarışdı. Namaz çempionatda Macarıstan və Özbəkistandan olan rəqiblərinə qalib gəlsə də, 1/4 final görüşündə məğlub oldu. Onun rəqibi finala yüksəldiyindən Namaz da təsəlliverici görüşlərdə iştirak etdi. Ukrayna idmançısına qalib gələn yetirməm bürünc medal uğrunda həlledici görüşdə Türkiyə təmsilçisi ilə qarşılaşıb. O, gərgin keçən qarşılaşmada qalib gələrək dünya çempionatının bürünc medalına sahib olmağı bacardı. Təbii ki, biz ondan qızıl medal gözləyirdik, bu nəticə ilə kifayətlənmək istəmirdik. Qeyd edim ki, o, bu il respublika çempionu adını da qazanıb. Namaz artıq böyüklərdən ibarət komandaya keçdi. Onun növbəti sınağı noyabr ayında Polşanın paytaxtı Varşava şəhərində keçiriləcək 23 yaşlılar arasında dünya çempionatı olacaq. Yetirməm bu yarışda iştirak etməyə əsas namizədlərdən biridir. Biz onun böyüklər arasında da uğurlu nəticələr əldə edəcəyinə inanırıq".

## Spartakiadanın proqramında yeni idman növü

Hər il ənənəvi olaraq "Zenit" İC-in xidmət sahəsinə daxil olan müəssisə və təşkilatların Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş Respublika Spartakiadası keçirilir. Növbəti, XX Spartakiada oktyabrın 11-də start götürəcək. 10 idman növü üzrə keçiriləcək spartakiadanın proqramında bu il dəyişiklik olacaq. Belə ki, yarışın proqramına qol güləşinin əvəzinə üzgüçülük növünü daxil edilib. Əsas məqsəd üzgüçülük növünün kütləviliyini artırmaq və inkişafına nail olmaqdır. "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin İdman Təşkilatı işlərinin şöbə müdiri Əzim Süleymanov XX Spartakiadanın respublika yarışları səviyyəsində keçiriləcəyini və ili uğurlu nəticələrlə başa vuracaqlarını bildirdi: "Spartakiadanın keçirilməsində əsas məqsəd zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsini təmin etmək, müəssisə və təşkilatların fəhlə və qulluqçuların asudə vaxtlarını səmərəli keçirmək, bədən tərbiyəsi və idman yarışlarını



daha yaxşı təşkil etmiş müəssisələri, təşkilatları müəyyən etməkdən ibarət olub. İnanıram ki, əvvəlki illərlə olduğu kimi, bu il də spartakiadanı yüksək səviyyədə təşkil edəcəyik".

İdman cəmiyyətin bu ilin 9 ayındakı nəticələri barəsində danışan Əzim müəllim nəticələrin qənaətbəxş olduğunu vurğuladı: "Ölkədə fəaliyyət göstərən bütün klub və cəmiyyətlərin arzusu odur ki, idmançıları yüksək nəticələr göstərsin. Bu il bizim üçün yüksək nəticələrlə yadda qalacaq, desəm, yanılmaram. Cəmiyyətimizin idmançıları - Əfqan Xaşalov, Əlihəsən Əmirli və Namaz Rüstəmovu qələbələr münasibəti ilə təbrik edirəm. Bu qələbələr onu göstərir ki, cəmiyyətimizdə yeni idmançılar yetişir. Onlar böyüklərdən ibarət yığma komandaya gələcək namizədlərdir. Əfqan Xaşalov Azərbaycanın idman ustası adını alıb. Əlihəsən Əmirli də idman ustası adına namizəddir. Biz bu idmançılara böyük ümidlərlə baxırıq. Mən onların hər birini gələcəyin Olimpiya çempionları kimi görürəm. Yerli idmançıların sayının artması bizi hədsiz sevindirir. Azərbaycan güləşi həmişə bütün yarışlarda öz sözünü deyib. İnanıram ki, bundan sonrakı yarışlarda da pəhləvanlarımız uğurları ilə fərqlənməyi bacaracaqlar".

***Rahib Səmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Beynəlxalq quruma yeni prezident seçilib

Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) yeni prezidenti seçilib. Qurumun Norveçin Bergen şəhərində baş tutan 186-cı konqresində fransalı David Lappartien 37 səslə qalib olub. 2013-cü ildən beynəlxalq quruma rəhbərlik edən digər namizəd, britaniyalı Brayan Kuksona isə 8 nəfər səs verib.

David Lappartien 2013-cü ildən Avropa Velosipedçilər İttifaqının (UEC) prezidentidir. Konqresdə ölkəmizi Azərbaycan Velosiped İdmanı Federasiyasının I vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin (UEC) Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov və federasiyanın baş katibi Fərhad Əliyev təmsil edib.

Fərhad Əliyev UEC-yə üzv olan 50 milli federasiya içərisindən seçilmiş səs hüququna malik 15 səlahiyyətli nümayəndədən biri kimi UCİ prezidenti seçkisində iştirak edib. Prezident seçkiləri başa çatdıqdan sonra UCI-ın Rəhbər Komitəsinin yeni üzvləri də seçilib.

# Cüdoçular Şağanda yarışdılar



Sentyabrın 24-də Şağan İdman Kompleksində Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin "Gömrükçü" idman klubunun cüdo üzrə uşaqlar və kiçikyaşlı yeniyetmələr arasında açıq birinciliyi keçirilib. Yarışın açılış mərasimində Cüdo Federasiyasının baş katibi Elmar Babanlı, gənclərdən ibarət yığma komandanın baş məşqçisi Elçin İsmayılov və "Gömrükçü" idman klubunun cüdo bölməsinin baş məşqçisi Bəxtiyar Hacıyev iştirak edib.

Açılış mərasimində çıxış edən Elmar Babanlı birincilikdə fərqlənən idmançıları Bakı və respublika yarışlarında da qalib gələrək yığma komandanın heyətində ən mötəbər yarışlarda ölkəmizi təmsil edəcəklərinə inandığını bildirib. Federasiyanın baş katibi belə yarışların təşkilində "Gömrükçü" idman klubuna dəstək olacaqlarını qeyd edib. Elçin İsmayılov və Bəxtiyar Hacıyev "Gömrükçü" idman klubunun cüdo idman növünün təbliğatı istiqamətində kompleks tədbirlərin həyata keçiridiyni və belə yarışların yeniyetmə idmançıların hazırlığında xüsusi əhəmiyyət daşıdığını bildiriblər.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra yarışların final mərhələsinə start verilib.

Qeyd edək ki, turnirdə 12 komandanın heyətində 210 idmançı mübarizə aparıb. Yarışda komanda hesabında birinci yerə Sumqayıt idmançıları layiq görülüblər. "Gömrükçü" idman klubu ikinci, "Qəbələ" klubu isə üçüncü yeri tutub. Qaliblər diplom, medal və qiymətli hədiyyələrlə təltif olunublar.

"Neftçi idman klubu" İB

# Spartakiadanın qaliblərinə mükafatlar təqdim olundu



"Neftçi İdman Klubu"nun təşkilatçılığı ilə sentyabrın 11-də startı verilmiş neft, qaz və kimya sənayesi işçilərinin XXV Spartakiadasına yekun vurulub. 31 müəssisədən 1238 iştirakçının qatıldığı Spartakiadada Heydər Əliyev adına Neft Emalı Zavodu ümumi komanda hesabında qalib adını qazanıb. Neft Kəmərləri İdarəsi 2-ci, "Neft Daşları" Neftqazçıxarma İdarəsi isə 3-cü yeri tutub.

Sentyabrın 19-da "Neftçi İdman Klubu"nun inzibati binasında qaliblərin mükafatlandırılması mərasimi keçirildi. İlk öncə klubun idarəetmə aparatının rəhbəri Sadıq Sadıqov çıxış edərək qalibləri qazandıqları qələbələr və qarşıdan gələn neftçilərin peşə bayramı (20 sentyabr - Neftçilər günü) münasibətilə təbrik etdi. O, XXV Spartakiadanın gedişatından və təntənəli surətdə keçirilən açılış mərasiminin yüksək səviyyədə təşkil olunmasından geniş söhbət açdı. Spartakiadanın ildən-ilə təkmilləşməsindən və növbəti illərdə daha da yaxşı təşkil olunacağından bəhs edən idarəetmə aparatının rəhbəri bu işdə iştirakçıların da böyük pay sahibi olduqlarını diqqətə çatdırdı. Bu sahədə daha çox işləmək lazım olduğunu söyləyən natiq neftçilər arasında keçirilən yarışların sayını daha da artırmağı tövsiyə etdi. O, bütün Spartakiada iştirakçılarına yarışlarda göstərdikləri fəallığa görə dərin minnətdarlığını bildirdi, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər dilədi və qalibləri təbrik etdi.

Sonra qaliblərin mükafatlandırılmasına başlanıldı və kuboklar sahiblərinə təqdim olundu.

Tədbirin sonunda çıxış edən nümayəndələr Spartakiadanın yüksək səviyyədə təşkil olunmasına görə "Neftçi İdman Klubu"nun rəhbərliyi və kollektivinə bütün yarış iştirakçıları adından minnətdarlıqlarını bildirdilər.

***"Neftçi İdman Klubu"***
***İctimai Birliyinin mətbuat xidməti***

# Atletimiz Avropa rekordunu yeniləyib



***Kosovonun paytaxtı Priştina şəhərində 15 və 17 yaşlı yeniyetmə ağırlıqqaldıranlar arasında Avropa birinciliyi keçirilir. Yarışda 40-a yaxın ölkədən 305 atlet (175 oğlan və 130 qız) medallar uğrunda mübarizə aparır.***

Azərbaycan yığması yarışda 9 idmançı (8 oğlan, 1 qız) ilə təmsil olunur. Avropa birinciliyində idmançımız Rüstəm Qasımov birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib. Turnirdə 56 kq çəki dərəcəsində mübarizə aparan idmançımız ardıcıl olaraq 92, 96 və 100 kq çəkini ram edərək bu hərəkət üzrə Avropanın ən yaxşısı olub.

İdmançımız 100 kq çəkini başı üzərinə birdən qaldırma hərəkətində türkiyəli Toptaş Canerə məxsus olan Avropa rekordunu (99 kiloqram) yeniləməyi bacarıb.

Rüstəm Qasımov təkanla qaldırma hərəkətində də uğurla çıxış edib. O, 112, 118 və 121 kq çəkini başı üzərinə qaldırmaqla bu hərəkətdə də Avropada hamıdan yaxşı olduğunu sübut edib.

Ümumilikdə 221 kiloqram (100+121) nəticə əldə edən atletimiz yeniyetmələr arasında Avropa çempionu olub.

Digər idmançımız Murad Əliyev isə birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğursuz başa vurub. O, təkanla qaldırmada 105 kq çəkini ram edərək bu hərəkət üzrə doqquzuncu yeri tutub.

# *Veteran gimnastlar yubileylərini qeyd ediblər*



Sentyabr ayında iki veteran gimnastımız öz yaşını qeyd edir. Hər iki yubilyar - Larisa Mehtiyeva və Eldar Cahangirbəyov həyatlarını idman gimnastikası növünə həsr ediblər.

Larisa Mehtiyevanın 75 yaşı tamam olur. SSRİ idman ustası, bədən tərbiyəsi və idman əlaçısı, respublika dərəcəli hakim Larisa Mehtiyeva 1942-ci il sentyabrın 21-də Bakı şəhərində anadan olub. Larisa xanım idman gimnastikası ilə erkən yaşlarından məşğul olmağa başlayıb. 1957-1958-ci illərdə gənclər arasında respublika çempionu adına layiq görülən gimnastımız 1959-cu ildə keçirilən Respublika Spartakiadasında sərbəst hərəkətlərdə və dayaqlı tullanma üzrə çempion adını qazanıb. Bakı çempionu titulunu qazanmaq isə ona 1960-cı ildə qismət olub.

Yığma komandanın üzvü kimi ölkəmizi bir sıra turnirlərdə şərəflə təmsil edən Larisa Mehtiyeva həm də məşqçi-müəllim kimi fəaliyyət göstərib.



SSRİ bədən tərbiyəsi və idman əlaçısı, Əməkdar bədən tərbiyəsi və idman xadimi Eldar Cahangirbəyov isə ömrünün 80-ci payızına qədəm qoyub. İdman gimnastikası ilə 12 yaşından məşğul olan Eldar müəllim 1937-ci il sentyabrın 16-da Bakıda anadan olub. Məşqçi Aleksandr Qruninin rəhbərliyi altında çalışan gimnastımız idman karyerası ərzində müəyyən uğurlara imza atıb. Bir sıra rəhbər vəzifələrdə çalışan veteran gimnast 18 il məşqçi-müəllim kimi fəaliyyət göstərib, dəfələrlə fəxri fərmanlarla təltif olunub.

Azərbaycan Gimnastika Federasiyası və Gimnastika Veteranlar Şurası əmək və idman veteranları Larisa Mehtiyevanı və Eldar Cahangirbəyovu yubiley münasibəti ilə səmimi qəlbdən təbrik edir, onlara can sağlığı, uzun ömür arzulayır.

# *Cüdoçularımızın Serbiya sınağı uğurlu oldu*



Serbiyanın paytaxtı Belqradda keçirilən cüdo üzrə Avropa açıq çempionatı başa çatıb. 30 ölkədən 240 cüdoçunun (157 oğlan, 83 qız) mübarizə apardığı turnirdə Azərbaycan milli komandası 17 idmançı (13 oğlan, 4 qız) ilə təmsil olunub. Yarışın birinci günündə Azərbaycan millisi aktivinə üç medal yazdırıb. Beynəlxalq turnirdə ölkəmizi təmsil edən Elbrus Zamanov (60 kq), Telman Vəliyev (73 kq) və Gültac Məmmədəliyeva (48 kq) bürünc medallara sahib olublar. Komandamız yarışın son günündə daha 2 medal qazanıb.

Ağır çəkidə mübarizə aparan Cəlil Şükürov gümüş, 81 kq çəki dərəcəsində yarışan Fəqan Quluzadə isə bürünc medala layiq görülüb. Beləliklə, millimiz Serbiya səfərində 1 gümüş və 4 bürünc medala sahib olub.

# Millətlər Liqasının formatı müəyyənləşdi

***Millətlər Liqasının yekun qaydaları bəlli olub. Qurumun keçirilən İcraiyyə Komitəsinin iclasında ilk dəfə təşkil olunacaq turnirin keçirilmə formatı və EURO-2020-yə vəsiqələrlə bağlı son qərar təsdiqlənib.***

**2018**-ci il sentyabrın 6-da start götürəcək yarışın yeni loqosu da təqdim edilib. UEFA-ya üzv olan 55 milli assosiasiyanın hamısı yarışda öz millisi ilə təmsil olunacaq.

2017-ci il oktyabrın 11-də açıqlanacaq UEFA-nın yığmalar üçün reytinqinə görə komandalar A, B, C və D liqalarına bölünəcək. Bu reytinqdə DÇ-2018-in pley-offu nəzərə alınmayacaq.

A və B liqalarında 12, C liqasında 15, D liqasında 16 komanda yer alacaq. İki ən güclü liqanın hərəsində 3 komandadan ibarət 4 qrup olacaq. C liqasında isə bir qrupda 3, üçündə 4 yığma mübarizə aparacaqsa, "zəiflər" son liqada 4 komandalı dörd qrupa ayrılacaq.

2018-ci ilin sentyabr-noyabr aylarında ev və səfərdə olmaqla qrup mərhələsinin görüşləri keçiriləcək. A liqasının qrup qalibləri 2019-cu ilin iyununda mükafat uğrunda mübarizə aparacaq.

B, C və D liqalarında qrup qalibləri daha yüksək dəstəyə vəsiqə qazanacaqsa, A, B və C liqalarının qruplarında sonuncu olanlar aşağı diviziona yuvarlanacaq.

EURO-2020-yə vəsiqələrlə bağlı da yekun qərar verilib. 13 ölkədə təşkil olunan yarışa meydan sahibi kimi qatılacaq yığma olmadığından 24 vəsiqənin hamısı mübarizədə bilinəcək. Bunlardan 20-ci seçmə mərhələdə məlum olacaq.

2019-cu ilin martında EURO-2020-nin seçmə oyunları başlayacaq. 55 komanda 10 qrupda mübarizə aparacaq. 5 qrupda 5, 5 qrupda 6 yığma çıxış edəcək. Hər qrupda ilk iki yerə sahib olanlar final mərhələsinə yüksələcək. Digər 4 vəsiqənin sahibi isə Millətlər Liqasından bilinəcək. Hər liqanın ən yaxşısı qitənin ən nüfuzlu turnirinə yüksələcək. Bu komandanı müəyyənləşdirmək üçün qrup qalibləri bir oyundan ibarət yarımfinal və finalda üz-üzə gələcək. Əgər qrup qalibi artıq seçmə mərhələdən EURO-2020-yə vəsiqə qazanıbsa, onu turnir cədvəlində ən yaxın izləyicisi əvəzləyəcək. Bir liqada yarımfinalda oynamaq üçün seçmə mərhələdən vəsiqə qazanan 4 komanda sayı düzəlməsə, digər liqada daha yüksək yer tutan yığma həmin matçlara qoşulacaq.

## Beynəlxalq şahmat turniri start götürdü

Sentyabrın 23-də Respublika Şahmat Mərkəzində "Ağ Top" şahmat klubunun təşkilatçılığı ilə beynəlxalq reytinqli şahmat festivalı start götürüb. Yarışın açılış mərasimində "Ağ Top" Şahmat Klubunun direktoru, FİDE hakimi Cavanşir Bağırov iştirakçıları salamlayaraq yarış haqqında geniş məlumat verib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi, paytaxtın şahmat idman növü üzrə əlaqələndiricisi Salman Əbdülov bu tipli yarışların keçirilməsinin xüsusilə uşaq və yeniyetmə şahmatçılara olan faydasından danışıb.

Beynəlxalq Turnir 3 yarışdan – OPEN turnirdən, uşaq turnirindən və blits turnirdən ibarətdir. Turnirdə paytataxtla Bakı, Sumqayıt, Quba, Zərdab, Lənkəran şahmatçıları ilə yanaşı, Rusiya, Gürcüstan, Hindistan və Türkiyəni təmsil edən zəka sahibləri də mübarizə aparırlar. İsveçrə sistemi üzrə keçirilən və 7 turdan ibarət olan yarışın baş hakimi beynəlxalq dərəcəli hakim Nurəli Məmmədzadədir.

Yarışlara sentyabrın 30-da yekun vurulacaq.

## 13 saylı İOUGİM-nin açıq birinciliyi keçirilib

Sentyabrın 24-də 13 saylı İxtisaslaşdırılmış Olimpiya Uşaq-Gənclər İdman Məktəbində (İOUGİM) cüdo üzrə açıq birincilik keçirilib. Yarışda 2001-2003-cü illər təvəllüdlü idmançılar mübarizə aparıblar. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən turnirin sonunda qalib və mükafatçılar müvafiq diplomlarla təltif olunublar.

Qeyd edək ki, turnirdə ilk altılığa düşən idmançılar oktyabr ayında keçiriləcək Bakı birinciliyinə vəsiqə qazanıblar.

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**